Gimnaziyanın direktoru Novruz Dəmirov rəhbərlik etdiyi təhsil müəssisəsinin ümumi fəaliyyəti və qazandığı uğurlar haqqında məlumat verib. Qeyd olunub ki, "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olan gimnaziyanın 41 sinfində 1258 şagird təhsil alır və onların təhsili üçün hər cür şərait yaradılıb.

Tədbirdə iştirak edən təhsil naziri Misir Mərdanov konfrans zalının tərtibatından razı qaldığını bildirib, gimnaziya haqqında danışıb və pedaqoji kollektivin qarşısında duran vəzifələrdən söz açıb.

Sonda Təhsil Nazirliyinin bir neçə struktur rəhbəri çıxış edib, gimnaziyanın gələcək fəaliyyəti ilə əlaqədar təkliflər səslənib.